Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəisinin “17” iyul 2024-cü il tarixli 3-21-1/3-4-DY-1290/2024 nömrəli əmri ilə təsdiq edilmişdir.

# Ölçmə vasitələrinin yoxlanılmasını həyata keçirən fiziki şəxslərin attestasiyası QAYDALARI

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 16 dekabr tarixli 394 nömrəli qərarı ilə təsdiq edilmiş “Ölçmə vasitələrinin yoxlanılması Qaydası və yoxlama nişanına dair Tələblər”in 4.1-ci bəndinə uyğun olaraq hazırlanmışdır və ölçmə vasitələrinin yoxlanılmasını həyata keçirən fiziki şəxslərin attestasiyası qaydalarını müəyyən edir.

1.2. Bu Qaydaların məqsədləri üçün aşağıdakı anlayışlardan istifadə edilir:

1.2.1. **attestasiya** - ölçmə vasitələrinin yoxlanılması fəaliyyətini həyata keçirmək üçün fiziki şəxsin bilik dərəcəsinin, qabiliyyət və bacarığının müəyyən edilməsi;

1.2.2. **təkrar attestasiya** - attestasiya olunmuş yoxlayıcılara sonuncu dəfə verilmiş attestatın müddəti başa çatdıqda eyni fəaliyyət sahəsi və ya ölçmə növü üzrə növbəti dövr üçün attestasiya;

1.2.3. **ölçmə vasitələrinin yoxlayıcısı (bundan sonra - yoxlayıcı)** - ölçmə vasitələrinin yoxlanılmasını həyata keçirmək üçün attestasiya olunan fiziki şəxs;

1.2.4. **ərizəçi** - yoxlayıcı qismində attestasiya və ya təkrar attestasiya olunmaq üçün ərizə ilə müraciət edən fiziki şəxs;

1.2.5. **attestasiya komissiyası (bundan sonra – Komissiya)** - tərkibi Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti (bundan sonra – Xidmət) tərəfindən müəyyən edilən və ölçmə vasitələrinin yoxlanılmasını həyata keçirən fiziki şəxslərin attestasiyası, təkrar attestasiyası, attestatın qüvvəsinin dayandırılması və attestatın ləğvi barədə qərar qəbul edən komissiya.

## 2. Attestasiya komissiyasının fəaliyyətinin təşkili

2.1. Komissiya 5 (beş) nəfərdən ibarət tərkibdə təşkil edilir.

2.2. Attestasiya və səsvermə Komissiya üzvlərinin ən azı üçdə iki hissəsinin iştirakı ilə keçirilir.

2.3. Komissiyanın fəaliyyəti qanunçuluq, obyektivlik, şəffaflıq prinsipləri əsasında həyata keçirilir.

2.4. Komissiya yoxlayıcının attestasiyası (təkrar attestasiyası) zamanı ona yalnız bu Qaydalarda yoxlayıcılar üçün müəyyən edilmiş tələblərə uyğun olaraq aşağıdakı istiqamətlər üzrə suallar verə bilər:

2.4.1. peşə bilikləri (təhsili və təcrübəsi);

2.4.2. ölçmələrin vəhdətinin təmin edilməsi sahəsində qanunvericilik aktları;

2.4.3. nəzəri metrologiya;

2.4.4. kommunikasiya bacarıqları.

2.5. Komissiyanın tərkibi Xidmət rəisi tərəfindən müəyyən edilir və Komissiya üzvləri sırasından Komissiyaya sədr təyin olunur.

2.6. Komissiyanın üzvləri ölçmələrin vəhdətinin təmin edilməsi sahəsində təhsili və əmək stajı olan Xidmətin və onun tabeliyində olan qurumların işçi heyəti sırasından seçilir.

2.7. Komissiya üzvlərinin vəzifələri aşağıdakılardır:

2.7.1. komissiyanın iclaslarında iştirak etmək;

2.7.2. attestasiyanın (təkrar attestasiyanın) nəticələrinə dair səsvermədə bitərəf qalmamaq;

2.7.3. attestasiya (təkrar attestasiya) zamanı ona məlum olmuş konfidensial məlumatları açıqlamamaq;

2.7.4. yoxlayıcının attestasiyası (təkrar attestasiyası) həyata keçirilən zaman ona yalnız bu Qaydaların 2.4-cü bəndində müəyyən edilmiş istiqamətlər üzrə suallar vermək.

2.8. Komissiyanın sədri attestasiyaya hazırlıq prosesinə nəzarət edir və Komissiyanın iclaslarını aparır.

2.9. Komissiya üzvü attestasiya olunan yoxlayıcı ilə yaxın qohumluq, şəxsi yaxınlıq, asılılıq münasibətində olduqda, yaxud attestasiyanın (təkrar attestasiyanın), attestatın qüvvəsinin dayandırılması və attestatın ləğvi barədə iclasın nəticələrinə mənfi təsir edə bilən hallar mövcud olduqda, özü-özünə etiraz etməlidir. Eyni qaydada yoxlayıcı belə əsaslar olduqda, attestasiya (təkrar attestasiya) başlamazdan əvvəl Komissiyanın hər hansı üzvünə (üzvlərinə) etiraz edə bilər.

2.10. Bu Qaydaların 2.9-cu bəndinə uyğun olaraq əsaslandırılmış etiraz verildikdə, barəsində etiraz verilmiş Komissiya üzvü həmin etirazın verilməsinə səbəb olmuş yoxlayıcıya münasibətdə Komissiya tərəfindən keçirilən iclasda iştirak edə bilməz. Əgər etiraz nəticəsində Komissiyanın fəaliyyətini həyata keçirməsi mümkün olmazsa, həmin yoxlayıcıya münasibətdə Komissiya yenidən təşkil olunur.

2.11. Ərizəçinin attestasiyasına (təkrar attestasiya) dair Komissiyanın iclasının keçirilməsinə ən azı 3 (üç) iş günü qalmış iclasın keçirilmə vaxtı, tarixi və yeri barədə ərizəçiyə məlumat verilir. Ərizəçi üzrlü səbəblərdən iclasda iştirak edə bilmədiyi hallarda Komissiyanı əvvəlcədən məlumatlandırmalıdır. Bu halda Komissiya tərəfindən ərizəçiyə növbəti iclas tarixi müəyyən edilməklə məlumat verilir.

2.12. Ərizəçi üzrsüz səbəblərdən Komissiyanın iclasına gəlmədiyi halda Komissiyanın iclası onun iştirakı olmadan həyata keçirilir və bu barədə ərizəçiyə məlumat verilir.

2.13. Yoxlayıcıların attestasiyası (təkrar attestasiyası), attestatın (təkrar attestatın) qüvvəsinin dayandırılması və onun ləğv edilməsi haqqında qərarlar Komissiyanın iclas protokolu formasında qəbul edilir.

2.14. Komissiya öz qərarını gizli və ya açıq səsvermə qaydasında sadə səs çoxluğu ilə qəbul edir.

2.15. Komissiyanın iclasları protokollaşdırılır və protokol iclasda iştirak edən bütün Komissiya üzvləri və attestasiya (təkrar attestasiya) zamanı attestasiya edilən fiziki şəxs tərəfindən imzalanır. Komissiya üzvünün xüsusi rəyi olduqda, protokolda bununla bağlı qeyd aparılır və xüsusi rəy protokola əlavə olunur.

2.16. Yoxlayıcıya verilən attestat (təkrar attestat), attestatın (təkrar attestatın) qüvvəsinin dayandırılması və onun ləğv edilməsi haqqında qərarlar Komissiyanın sədri tərəfindən imzalanır.

2.17. Attestasiyanın nəticələrinə dair mübahisəli məsələlərə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq inzibati və məhkəmə icraatı qaydasında baxılır.

## 3. Yoxlayıcıların attestasiyası və təkrar attestasiya olunması qaydası

3.1. Yoxlayıcıların attestasiyası Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin "Məhsul növləri təsnifatı – AZT 053-2018"-ə uyğun olaraq ölçmə vasitəsinin növlərinin təsnifatı üzrə aparılır.

3.2. Yoxlayıcıların təkrar attestasiyadan keçirilməsi üçün sənədlər əvvəl verilmiş attestatın müddətinin bitməsinə azı 1 (bir) ay qalmış Xidmətə təqdim edilməlidir.

3.3. Yoxlayıcıların attestasiyası üçün Xidmətə bu Qaydaların 3.3.1-3.3.6-cı yarımbəndlərində nəzərdə tutulmuş sənədlər təqdim edilir. Bu Qaydaların 3.3.3-3.3.6-cı yarımbəndlərində nəzərdə tutulmuş sənədlər notarial qaydada təsdiqlənmiş surətləri ilə təqdim olunur:

3.3.1. ölçmə növü göstərilməklə ölçmə vasitəsinin tipi üzrə yoxlayıcı kimi attestasiya (təkrar attestasiya) edilmək üçün bu Qaydaların 1 nömrəli Əlavəsində göstərilən formada doldurulmuş ərizə;

3.3.2. ərizəçinin şəxsiyyətini təsdiq edən sənədin surəti;

3.3.3. ali və ya orta ixtisas təhsili almasını təsdiq edən sənədin surəti;

3.3.4. olduğu halda peşə təhsili müəssisəsini və ya ixtisasartırma kursunu bitirdiyini təsdiq edən sənədin surəti;

3.3.5. ölçmələrin vəhdətinin təmin edilməsi sahəsində əmək stajını təsdiq edən sənədlərin surətləri;

3.3.6. bu Qaydaların 2 nömrəli Əlavəsində göstərilən formada hazırlanmış və ərizəçinin ərizəsində qeyd etdiyi ölçmə növü üzrə təcrübə keçdiyini təsdiq edən sənəd.

3.4. Bu Qaydaların 3.3-cü bəndində nəzərdə tutulan sənədlər Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə olunması mümkün olduqda həmin sənədlər ərizəçidən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.

3.5. Təkrar attestasiya zamanı bu Qaydaların 3.3.3-cü və 3.3.6-cı yarımbəndlər istisna olmaqla, 3.3-cü bəndində nəzərdə tutulmuş digər sənədlər təqdim olunur.

3.6. Təqdim edilmiş materiallara baxılması və yoxlayıcıların attestasiyası (təkrar attestasiyası) haqqında qərar Komissiya tərəfindən sənədlərin daxil olduğu gündən 10 (on) iş günü müddətində qəbul edilir. Tələb edilən sənədlər tam təqdim edilmədikdə və ya təqdim edilmiş sənədlərdə uyğunsuzluq aşkarlandığı təqdirdə, bu barədə ərizəçiyə ərizə formasında qeyd edilən əlaqə vasitələrindən biri ilə məlumat verilir. Ərizəçi məlumat aldıqdan sonra müvafiq sənədləri 10 (on) iş günü müddətində Komissiyaya təqdim edir. Bu halda sənədlərin yenidən təqdim edilməsi üçün müəyyən edilən müddət attestasiyanın (təkrar attestasiyanın) keçirilməsi üçün müəyyən edilən müddətə daxil edilmir.

3.7. Yoxlayıcıya attestat bu Qaydaların 3 nömrəli Əlavəsində, təkrar attestat isə bu Qaydaların 4 nömrəli Əlavəsində müəyyən edilən formada 5 (beş) il müddətinə verilir.

3.8. Komissiya yoxlayıcının attestasiyasından (təkrar attestasiyasından) imtina olunması haqqında qərar qəbul etdikdə, qərarın qəbul edildiyi gündən 5 (beş) iş günü müddətində yoxlayıcıya yazılı şəkildə əsaslandırılmış imtina göndərir. İmtinada yoxlayıcıya Komissiyanın qərarından şikayət etmə qaydaları da göstərilir. İmtina üçün əsaslar aşağıdakılardır:

3.8.1. attestasiya (təkrar attestasiya) üçün müraciət etmiş fiziki şəxs bu Qaydaların 5-ci hissəsində müəyyən olunmuş tələblərə cavab vermədikdə;

3.8.2. attestasiyadan (təkrar attestasiyadan) keçmək üçün bu Qaydaların 3.3-cü bəndində müəyyən edilmiş sənədlər bu Qaydaların 3.6-cı bəndi nəzərə alınmaqla müəyyən edilmiş müddət ərzində təqdim edilmədikdə.

3.9. İmtina üçün əsas olmuş hallar aradan qaldırıldıqdan sonra sənədlər yenidən attestasiya (təkrar attestasiya) üçün təqdim edilə bilər.

3.10. Attestasiya olunduğu ölçmə vasitəsinin növündən və attestasiyanın (təkrar attestasiyanın) sayından asılı olmayaraq, Komissiya tərəfindən yoxlayıcıya yoxlama nişanını tətbiq etmək üçün hərf, rəqəm və (və ya) onların kombinasiyasından ibarət eyni (unikal) yoxlayıcı şifri verilir.

3.11. Attestasiyadan (təkrar attestasiyadan) keçmiş yoxlayıcılar barədə məlumatlar Xidmətin rəsmi internet saytında yerləşdirilir.

3.12. Yoxlayıcıya aşağıdakıları həyata keçirmək qadağan edilir:

3.12.1. attestatdan (təkrar attestat) attestasiya edən orqanın nüfuzuna xələl gətirə biləcək şəkildə istifadə etmək;

3.12.2. attestasiya edən orqanın icazəsi olmadan attestasiya (təkrar attestasiya) ilə bağlı həqiqətə uyğun olmayan məlumatlar vermək;

3.12.3. attestat (təkrar attestat) olmadan və qüvvəsi dayandırılmış attestatla (təkrar attestatla) və ya ləğv edlmiş attestatla (təkrar attestatla) ölçmə vasitələrinin yoxlanılmasını həyata keçirmək;

3.12.4. attestatdan (təkrar attestatdan) onun təyinatına uyğun olmayan formada istifadə etmək;

3.12.5. akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurumun işçi heyətinə daxil olmadan ölçmə vasitələrinin yoxlanılmasını həyata keçirmək.

## 4. Attestasiya edilmiş yoxlayıcının fəaliyyətinə nəzarət

4.1. Attestatın (təkrar attestatın) qüvvədə olduğu müddət ərzində attestasiya edilmiş yoxlayıcının fəaliyyətinə aşağıdakı hallarda Xidmət tərəfindən nəzarət həyata keçirilir:

4.1.1. dövlət metroloji nəzarətinin nəticələrinə əsasən;

4.1.2. akkreditasiya orqanının, fiziki, hüquqi şəxslərin, dövlət və ya yerli özünüidarəetmə orqanlarının müraciətləri əsasında, habelə mediada məlumatlar yayıldıqda.

4.2. Bu Qaydaların 4.1-ci bəndində nəzərdə tutulmuş nəzarət çərçivəsində attestasiya (təkrar attestasiya) olunmuş yoxlayıcının fəaliyyət göstərdiyi akkreditasiya olunmuş uyğunluğu qiymətləndirən qurumlardan onun gördüyü işlər barədə məlumat tələb oluna bilər. Bu halda müvafiq məlumatlar 7 (yeddi) iş günü müddətində Komissiyaya təqdim edilir.

4.3. Bu Qaydaların 4.1-ci bəndinə uyğun olaraq daxil olan məlumatlar Komissiya tərəfindən təhlil edilir, bu Qaydaların və ölçmələrin vəhdətinin təmin edilməsi sahəsində qanunvericiliyin tələbləri pozulmaqla ölçmə vasitələrinin yoxlanılması halları aşkar edildikdə attestatın (təkrar attestatın) qüvvəsinin dayandırılması haqqında qərar qəbul edilir. Attestatın (təkrar attestatın) qüvvəsinin dayandırılması haqqında qərar qəbul edildiyi gündən 5 (beş) iş günü müddətində nöqsanların aradan qaldırılması üçün yoxlayıcının fəaliyyət göstərdiyi akkreditasiya olunmuş uyğunluğu qiymətləndirən qurum(lar)a təqdim olunur (göndərilir).

4.4. Akkreditasiya olunmuş uyğunluğu qiymətləndirən qurum yoxlayıcının yol verdiyi nöqsanların aradan qaldırılması barədə 30 (otuz) iş günü müddətində müvafiq düzəliş tədbirlərinin görülməsinə dair Xidmətə məlumat verir.

4.5. Attestatın (təkrar attestatın) qüvvəsinin dayandırılmasına səbəb olan hallar il ərzində iki dəfə və daha çox baş verdiyi halda Komissiya tərəfindən yoxlayıcının attestatının (təkrar attestatının) ləğvi barədə qərar qəbul edilir.

4.6. Komissiya yoxlayıcının attestatının (təkrar attestatının) ləğv edilməsi haqqında qərar qəbul etdiyi gündən 5 (beş) iş günü müddətində yoxlayıcıya və yoxlayıcının fəaliyyət göstərdiyi akkreditasiya olunmuş uyğunluğu qiymətləndirən quruma yazılı bildiriş göndərir.

4.7. Attestatı (təkrar attestatı) ləğv edilmiş yoxlayıcı yeni attestat alanadək ölçmə vasitələrinin yoxlanılmasını həyata keçirə və yoxlama nişanını tətbiq edə bilməz.

## 5. Yoxlayıcılara dair tələblər

5.1. Ölçmə vasitələrinin yoxlanılmasını həyata keçirən fiziki şəxslərə (yoxlayıcılara) dair tələblər aşağıdakılardır:

5.1.1. ali təhsilin və ya orta ixtisas təhsilinin olması;

5.1.2. ölçmələrin vəhdətinin təmin edilməsi sahəsində əmək stajı:

1. texniki sahələrdə ali təhsilli namizəd üçün ölçmələrin vəhdətinin təmin edilməsi sahəsində ən azı 6 (altı) aylıq, metrologiya ixtisası üzrə ali təhsilli namizəd üçün ən azı 3 (üç) aylıq əmək stajı;

2. digər sahələrdə ali təhsilli və ya orta ixtisas təhsilli namizəd üçün ölçmələrin vəhdətinin təmin edilməsi sahəsində ən azı 2 (iki) illik əmək stajı;

5.1.3. olduğu halda peşə təhsili müəssisəsində və ya ixtisasartırma kursunda iştirakı;

5.1.4. attestasiya olunmaq üçün müraciətdə qeyd edilmiş ölçmə növü üzrə attestasiya olunmuş digər yoxlayıcı ilə həmin ölçmə növü üzrə ən azı 5 müxtəlif ölçmə vasitəsinin tipini

yoxlamaq şərtilə ən azı 5 (beş) iş günü müddətində təcrübə keçməsini təsdiq edən və bu Qaydaların 2 nömrəli Əlavəsində müəyyən edilmiş formada hazırlanmış sənəd.

5.2. Bu Qaydaların 5.1.4-cü yarımbəndində nəzərdə tutulmuş təcrübənin keçirilməsi mümkün olmadıqda, fiziki şəxs ölçmələrin vəhdətinin təmin edilməsi sahəsində akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurumda 1 (bir) ay müddətində təyinatlı praktiki iş təcrübəsi keçməli və bu Qaydaların 2 nömrəli Əlavəsində müəyyən edilmiş formada hazırlanmış sənədi təqdim etməlidir.

5.3. Bu Qaydaların 5.1.4-cü yarımbəndində və 5.2-cü bəndində nəzərdə tutulmuş tələblər yoxlayıcıların təkrar attestasiyasına şamil edilmir.

## 6. Yekun müddəalar

6.1. Attestat (təkrar attestat) itirildikdə yoxlayıcı attestatın dublikatının verilməsi üçün Xidmətə ərizə ilə müraciət edir.

6.2. Attestat (təkrar attestat) korlandığı təqdirdə yoxlayıcı attestatın dublikatının verilməsi üçün korlanmış attestatı əlavə etməklə Xidmətə ərizə ilə müraciət edir.

6.3. Attestatın (təkrar attestatın) dublikatının yuxarı sağ küncündə əvvəllər verilmiş attestatın nömrəsi, verilmə tarixi və etibarlılıq müddəti göstərilməklə “Dublikat” sözü yazılır.

6.4. Xidmət tərəfindən attestatın (təkrar attestatın) dublikatı müraciət edildiyi gündən 10 (on) iş günü müddətində verilir.

“Ölçmə vasitələrinin yoxlanılmasını həyata keçirən
fiziki şəxslərin attestasiyası Qaydaları”na
**1 nömrəli əlavə**

Ərizə forması

______________________________________

(attestasiyanı aparan orqanın adı)

Xahiş edirəm,
məni__________________________________________________________________

(fiziki şəxsin adı, soyadı, atasının adı, ünvanı)

______________________________________________________________________

(ölçmə növləri üzrə AZT 053-2018 uyğun məhsul kodu)

üzrə yoxlayıcı kimi attestasiyadan (təkrar attestasiyadan) keçirəsiniz.

Qoşma______________________________________________________________

(müraciətə əlavə olunan sənədlərin (şəxsiyyət vəsiqəsi, ali və ya orta ixtisas təhsili almasını təsdiq edən sənəd, peşə, ixtisas kursunu bitirməsini və iş stajını təsdiq edən sənədlər) adı və vərəqlərin sayı)

Təkrar attestat üçün müraciət etdikdə əvvəlki attestatın nömrəsi və
tarixi____________________________________________________________________

Fiziki şəxsin əlaqə vasitələri____________________________________________

(əlaqə nömrəsi, elektron poçt ünvanı və s.)

__________________________________ __________

(fiziki şəxsin adı, soyadı) (imza)

Tarix: “____” ______20____il

“Ölçmə vasitələrinin yoxlanılmasını həyata keçirən
fiziki şəxslərin attestasiyası Qaydaları”na
**2 nömrəli əlavə**

**Yoxlayıcının ölçmə növü üzrə təcrübə keçməsini təsdiqləyən sənəd**

Təcrübənin keçirildiyi təşkilat ______________________________________________
______________________________________________________________________

(təşkilatın adı və ünvanı)

Təşkilatın struktur bölməsinin adı_____________________________________

Təcrübəni keçirən mütəxəssis(lər)_____________________________________

(mütəxəssis(lər)in adı, soyadı, atasının adı)

Təcrübə keçmiş fiziki şəxs __________________________________________

(adı, soyadı, atasının adı)

Təcrübənin başlama və bitmə tarixi:____________________________________

Təcrübə müddətində fiziki şəxsin yoxladığı ölçmə vasitələri haqqında məlumat

| Ölçmə vasitəsinin adı, tipi | Ölçmə növləri üzrə məhsul kodları (“Məhsul növləri təsnifatı - AZT 053-2018”-ə uyğun olaraq) | Azərbaycan Respublikasında istehsalı və ya Azərbaycan Respublikasına idxalı | Yoxlama metodikasının adı |
|---|---|---|---|
| | | | |

Təcrübə rəhbərinin tövsiyəsi___________________________________________

Rəhbər: _____ ______________________________

(imza ) (adı, soyadı, atasının adı, vəzifəsi) M.Y.

Təcrübə keçdiyi struktur bölmənin rəhbəri: _____ ______________________________

(imza) (adı, soyadı, atasının adı, vəzifəsi)

Verilmə tarixi: “____” ____ 20______

“Ölçmə vasitələrinin yoxlanılmasını həyata keçirən fiziki şəxslərin attestasiyası Qaydaları”na

**3 nömrəli əlavə**

**Attestat №____________________**

(qeydiyyat nömrəsi)

Verilmə tarixi:___________20____il

(gün, ay, il)

Etibarlıdır: ______________20____il

(gün, ay, il)

Bu Attestat təsdiq edir ki, Xidmətin ___________tarixli __________ nömrəli Əmri ilə təsdiq edilmiş "Ölçmə vasitələrinin yoxlanılmasını həyata keçirən fiziki şəxslərin attestasiyası Qaydaları"na uyğun olaraq

_____________________________________________________________________________

(fiziki şəxsin adı, soyadı, atasının adı)

_____________________________________________________________________________
_____________________________________________________________________________
_____________________________________________________________________________
_____________________________________________________________________________
_____________________________________________________________________________
_____________________________________________________________________________

______________ölçmə vasitəsini (ölçmə vasitələrini) yoxlamaq (AZT 053-2018 - ə uyğun məhsul kodu üzrə) hüququna malikdir.

Yoxlayıcı şifri_________________________________________________________

| | | |
|---|---|---|
| ____________ | _____________ | ________________________ |
| (vəzifənin adı) | (imza) | (soyadı, adı və atasının adı) |

**M.Y.** "____" _______ 20____il

"Ölçmə vasitələrinin yoxlanılmasını həyata keçirən fiziki şəxslərin attestasiyası Qaydaları"na

**4 nömrəli əlavə**

**Təkrar attestat №___________________**

(qeydiyyat nömrəsi)

Verilmə tarixi:___________20____il

(gün, ay, il)

Etibarlıdır: ____________20____il

(gün, ay, il)

Bu Attestat təsdiq edir ki, Xidmətin ___________tarixli __________ nömrəli Əmri ilə təsdiq edilmiş "Ölçmə vasitələrinin yoxlanılmasını həyata keçirən fiziki şəxslərin attestasiyası Qaydaları"na uyğun olaraq ____________________________________________

(fiziki şəxsin adı, soyadı, atasının adı)

____________________________________________

____________________________________________

____________________________________________

____________________________________________

____________________________________________

____________________________________________

_____________________ ölçmə vasitəsini (ölçmə vasitələrini) yoxlamaq (AZT 053-2018-ə uyğun məhsul kodu üzrə) hüququna malikdir.

Yoxlayıcı şifri_________________________________________________

| | | |
|---|---|---|
| ____________ | _____________ | ________________________ |
| (vəzifənin adı) | (imza) | (soyadı, adı və atasının adı) |

**M.Y.** "____" _______ 20____il